Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin

Ermənistan və Azərbaycan silahlı qüvvələri arasında gedən döyüşlər zamanı

mülki əhali və obyektlərin hədəfə alınması ilə bağlı

Bəyanatı

Sentyabr 27-də Azərbaycan Respublikasının Ermənistan hərbi qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ və ətraf rayonlardakı təmas xəttində atəşkəs rejiminin pozulması ilə yeni döyüşlər başlayıb. Qeyd edək ki, 1994-cü ildə imzalanmış atəşkəsdən sonra hazırkı döyüşlər daha uzunmüddətli və intensiv şəkildə davam etməklə yüzlərlə canlı qüvvə itkisinə, mülki əhalinin ziyan çəkməsi ilə müşayiət olunub.

Hərbi əməliyyatlar Dağlıq Qarabağ və ətraf ərazilərdə keçirilsə də, Ermənistan hərbi qüvvələri təmas xəttindən uzaqda yerləşən rayonlara, o cümlədən mülki yaşayış obyektlərinə 300-dən artıq artileriya və raket hücumları həyata keçirib.

Rəsmi məlumata əsasən son bir ay ərzində Ermənistan ordusuna məxsus hərbi birləşmələr Azərbaycanın 15 rayonunda mülki əhalini və obyektləri hədəf alıb. Ağır artilleriya, raket qurğuları və iriçaplı silahlarla mülki obyektlərin hədəf alması nəticəsində 69 nəfər həlak olub, 322 nəfər yaralanıb, 2338 ev, 92 çox mənzilli bina və 415 mülki obyekt yararsız hala düşüb.

SMDT Ermənistan hərbi birləşmələrinin münaqişə zonasından kənardakı mülki obyektləri hədəfə alınmasını şiddətlə qınayır, bunu döyüşlər zamanı qeyri-hərbi və mülki obyektlərə atəş açılmasının yolverilməzliyi barədə Beynəlxalq Humanitar Hüququn prinsiplərinin kobud pozuntusu sayır. SMDT mütəxəssis rəylərinə istinad edərək təəsüflə qeyd edir ki, mülki obyektlərə və əhalinin sıx yaşadığı ərazilərə beynəlxalq konvensiyalarla qadağan olunmuş kaset sursatından və kifayətedici hədəf dəqiqliyi olmayan ballistik raktetlərdən və silahlardan istifadə edilib.

SMDT xatırlardır ki, kifayət qədər dəqiqliklə hədəf alma qabiliyyəti olmayan raketlər vasitəsilə mülki əhalinin yaşadığı ərazilərin vurulması beynəlxalq humanitar hüquq normalarını zidd olmaqla, mülki və hərbi hədəflər arasında "fərq qoyma prinsipinin", "mütənasiblik prinsipinin", və "hücum zamanı ehtiyat tədbirlərinin görülməsi qaydasının" ciddi şəkildə pozulmasıdır.

SMDT ölkənin müxtəlif rayonlarında mülki əhali və obyektlərə edilən 300-dən artıq hücumu nəticəsində minlərlə insanın öz yaşayış yerini tərk etməsinin humanitar fəlakətə səbəb olacağından narahatlıq keçirir və bu durumun beynəlxalq qurumlar, o cümlədən peşəkar hüquq müdafiə təşkilatları tərəfindən dəyərləndirlməsini zəruri sayır. Bu baxımdan Azərbaycan hökumətinin Amnesty İnternational və Human Rights Votç təşkilatlarını ölkəyə fakt-araşdırıcı missiya göndərmək məqsədilə dəvət etməsini təqdir edir. SMDT həmçinin insan hüquqları üzrə ictimai fəalların iştirakı ilə Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində mülki

hüquqları pozulan vətəndaşların Avropa İnsan Hüquqları Məhkəməsinə şikayətlərinin hazırlanması prosesində iştirak edəcəyini bildirir.

SMDT xatırladır ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf 7 rayonun Ermənistan hərbi birləşmələrinin 1992-1994-cü illərdə davam edən hərbi təcavüzü nəticəsində 600 mindən artıq şəxs məcburi köçkünə çevrilib, münaqişə ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamə hələ də icra olunmayıb.

Əlaqə vasitələri:

Email: emc.az2001@gmail.com
Telefon: +994503334674
Veb: www.smdtaz.org
Facebook: www.facebook.com/AZEelections/
Twitter: @SMDT_EMDS